# Təhsil səviyyəsinin yüksəldilməsi günün tələbidir

**Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov ənənəvi olaraq ali təhsil müəssisəsinin müvafiq ixtisaslarında təhsil alan tələbələrlə görüşüb, onların fəaliyyəti ilə yaxından maraqlanıb, təkliflərini dinləyib və onları maraqlandıran sualları cavablandırıb.**



Rektor Yusif Yusibov qeyd edib ki, ölkə başçısı tərəfindən milli təhsilin dünya təhsili səviyyəsinə yüksəldilməsi üçün bir sıra islahatlar həyata keçirilib, bu sahənin hərtərəfli inkişafına böyük məbləğdə vəsait ayrılıb. Belə ki, ölkə başçısı tərəfindən universitetin kitabxana və tələbə şəhərciyinin yenidənqurulması üçün 8 milyon manat vəsait ayrılıb. Təxminən bir aydan sonra Gəncə Dövlət Universitetinin yeni kitabxana və yataqxanaları istifadəyə veriləcək.

İKT-dən istifadə imkanlarının genişləndirilməsi, "Rəqəmsal bacarıqlar" layihələri barədə geniş məlumatları da rektor Yusif Yusibov diqqətə çatdırıb. Hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan tələbələrə Prezident təqaüdünün, habelə gənclər üçün Prezident mükafatının təsis edilməsi onların daha yaxşı təhsil ala bilməsi, təhsilin əlçatanlığının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Sərəncama əsasən, ali məktəblərdə müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 2019-cu il martın 1-dən 16 000 vahid artırılması ilə 2019-2020-ci tədris ilində təqaüd alan tələbələrin ümumi sayına olan nisbəti 45 faizə çatdırılıb. Ölkə başçısının son illər gənclər siyasətində əhəmiyyətli islahatları təhsil prosesində də özünü göstərir. Dövlətimiz tərəfindən tələbələrin təqaüdləri artırılır, dövlət sifarişi ilə təhsil almaq imkanları genişləndirilir.

Rektor Yusif Yusibov bildirib ki, görüşün təşkilində əsas məqsədlərdən biri 2019-2020-ci tədris ilinin payız semestri imtahanlarına tələbələrin hazırlıq səviyyəsini öyrənmək və onların imtahanlara hazırlıq prosesində qarşılaşa biləcəkləri çətinliklərin operativ həllinə nail olmaqdır. Universitet üzrə hər tədris ilinin payız və yaz semestrlərinin imtahan sessiyası tədris planlarında nəzərdə tutulan müddətdə keçirilir. Fakültələr tərəfindən imtahan qəbul ediləcək fənlər üzrə məsləhət saatlarının qrafiki tərtib olunaraq tələbələrin müəllimlərdən imtahanqabağı məsləhət almalarına şərait yaradılır. Universitetdə imtahanlar fənlərin tədris xüsusiyyətindən asılı olaraq yazılı, kompüterdə test üsulu formasında qəbul edilir.

Payız və qış sessiyaları müddətində imtahanların gedişatı zamanı yarana biləcək münaqişəli halların aradan qaldırılması və lazımi tədbirlərin görülməsi məqsədilə universitet üzrə "Apellyasiya komissiyası" yaradılıb. Rektor Yusif Yusibov gənclərə Azərbaycanın daha da qüdrətlənməsi, tərəqqisi və inkişafı yolunda mübariz olmağı arzulayıb. Tələbələri universitetin ictimai həyatında fəal iştirak etməyə çağırıb, onlara tələbə həmkarlar və gənclər təşkilatları ilə sıx, işgüzar əlaqələr qurmağı tövsiyə edib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika 2019.- 30 dekabr.- S.5.